# Azərbaycan Keniya məktəbinə növbəti dəfə humanitar yardım göstərib

**Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) Keniyanın Vihiqa əyalətində yerləşən Müqəddəs Ursula adına Çamakanqa xüsusi məktəbinə növbəti dəfə humanitar yardım göstərib.**

Azərbaycanın Keniyadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, yanvarın 26-da AİDA-nın humanitar yardımının təqdim edilməsi münasibətilə məktəbdə mərasim keçirilib. Mərasimdə Vihiqa əyaləti qubernatorunun müavini Uilberfors Kitiezo, Azərbaycanın Keniyadakı səfiri Sultan Hacıyev, Vihiqa əyalətinin komissarı Florens Sitava, Keniya Təhsil Nazirliyinin rəsmiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.



Mərasimdə çıxış edən S.Hacıyev inklüziv təhsilin davamlı inkişafın və bərabərliyin əsas komponenti kimi əhəmiyyətini vurğulayıb. Azərbaycanın Heydər Əliyev Fondu və AİDA vasitəsilə Keniyada və digər Afrika ölkələrində təhsil, gənclərin gücləndirilməsi, mədəniyyət və səhiyyə sahələrində humanitar yardım göstərilməsi istiqamətlərində fəaliyyətindən danışıb.

Azərbaycan .-2026.- 27 yanvar (№ 15).- S.9.